**"Azərbaycan Respublikası Hökuməti ilə Rumıniya Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" 2002-ci il oktyabrın 29-da Bakı şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi barədə" Əlavə Protokolun təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. I. "Azərbaycan Respublikası Hökuməti ilə Rumıniya Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında 2002-ci il oktyabrın 29-da Bakı şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi barədə" 2006-cı il oktyabrın 11-də Bakı şəhərind imzalanmış Əlavə Protokol **təsdiq edilsin.**
2. II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYE**
**Azərbaycan Respublikasının Preziden**

Bakı şəhəri, 10 aprel 2007-ci il
№ 283-IIIQ

**2002-ci il oktyabrın 29-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"ə dəyişikliklər edilməsi barədə**

**ƏLAVƏ PROTOKOL**

Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökumətlərinin nümayəndələri,

Avropa İttifaqının gələcək Üzv Dövləti kimi öhdəliklərini yerinə yetirmək məqsədilə 2002-ci il oktyabrın 29-da Bakı şəhərində imzalanm "Azərbaycan Respublikası Hökuməti ilə Rumıniya Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"ə (bunda sonra "Saziş" adlandırılacaq) düzəlişlər edilməsinin Rumıniya üçün vacibliyini nəzərə alaraq,

Rumıniyanın, Avropa Birliyinin yaradılması haqqında Müqavilənin 307-ci maddəsinin və Rumıniyanın Avropa İttifaqına Qoşulma haqqınd gələcək Aktına dair gedən danışıqların şərtlərinə əsasən, qoşulma prosesini tamamlamaq məqsədilə Birlik hüququ və bu Saziş də daxil olmaqla onu digər beynəlxalq müqavilələri arasındakı uyğunsuzluqları aradan qaldırmaq üçün bütün müvafiq addımlar atmaq öhdəliyində olmasını qəbu edərək,

belə uyğunsuzluqları aradan qaldırmaq üçün bu Sazişə müvafiq düzəlişlər edilməsinin vacibliyi ilə razılaşaraq,

Azərbaycan investisiyaları üçün Rumıniyadan hüquqi rejim yaratmaq məqsədilə onun Birlik hüququ ilə uyğunluğunu təmin etməkdən ötr Əlavə Protokolu imzalamaq haqqında qərara gəldilər; və

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Protokolun məqsədi Rumıniyanın Avropa İttifaqında üzvlüyündən irəli gələn öhdəlikləri ilə uyğunluq yaratmaqdan ötrü bu Sazi düzəlişlər etməkdən ibarətdir.

Maddə 2

3-cü maddədə aşağıdakı dəyişikliklər ediləcəkdir:

1. 1-ci böndə eyni ifadə əlavə olunmaqla həmin bənd aşağıdakı kimi oxunacaq:

(1) Avropa İttifaqı tərəfindən qəbul olunmuş meyarlara heç bir xələl gətirmədən Razılığa gələn hər bir Tərəf (...)”

2. 3-cü bəndin Sazişdə göstərilən əvvəlki mətni aşağıdakı mətn ilə əvəz edilir:

"3. Bu Sazişin ayrı-seçkilik etməmə rejimi, milli rejim və ən əlverişli rejimə aid müddəalarının Razılığa gələn Tərəflərdən hər hansı birini Avropa İttifaqı kimi gömrük, iqtisadi və ya valyuta birliyində, ümumi bazarda və ya azad ticarət zonasında üzvlüyü və ya iştirakı əsasında həmi Tərəfin özünün, belə birliyin, ümumi bazarın və ya azad ticarət zonasının üzv dövlətlərinin və ya hər hansı digər üçüncü dövlətin investorların verdiyi güzəşt və imtiyazlara aidiyyəti yoxdur. Bu rejimin, həmçinin Razılığa gələn Tərəflərdən hər hansı birinin ikitərəfli əsasda ikiqat vergiqoym sazişi və ya vergi məsələlərinə dair digər sazişlərə müvafiq olaraq üçüncü dövlətin investorlarına verdiyi imtiyazlara aidiyyəti yoxdur".

Maddə 3

4-cü maddənin 1-ci bəndi dəyişilərək aşağıdakı redaksiyada veriləcəkdir:

"1. Avropa İttifaqının qəbul etdiyi meyarlara xələl gətirmədən Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin investorların investisiyaların və gəlirlərin və xüsusilə, lakin bunlarla məhdudlaşmayaraq, aşağıdakıların məhdudiyyətsiz köçürülməsinə icazə verəcəkdir".

Maddə 4

11-ci maddəyə aşağıdakı ifadə formasına malik olan yeni "3-cü" bənd əla-və olunmaqla düzəlişlər ediləcəkdir:

"(3) Rumıniyanın Avropa İttifaqına daxil olduğu təqdirdə bu Sazişə, onun müddəalarının Rumıniyanın Avropa İttifaqında üzvlüyü statusunda irəli gələn öhdəliklərinə uyğunluğunu təmin etmək üçün zəruri hallarda Tərəflərin qarşılıqlı razılığına əsasən düzəlişlər ediləcəkdir.

Əgər belə razılıq əldə olunmazsa, Rumıniyanın birtərəfli qaydada bu Sazişi denonsasiya etmək hüququ var. Sazişin tətbiqi Avropa İttifaqın daxil olmanın qüvvəyə minməsi tarixində, denonsasiyanın daxil olma tarixindən sonra baş verdiyi təqdirdə isə denonsasiya barədə bildiriş alındı tarixdən üç ay sonra dayandırılacaqdır".

Maddə 5

Bu Əlavə Protokol Sazişin tərkib hissəsini təşkil edəcəkdir.

Bu Əlavə Protokol, onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Razılığa gələn Tərəflərin bir-birin göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdə qüvvəyə minəcək və bu Sazişin qüvvədə olduğu müddətdə qüvvədə qalacaqdır.

Bunun təsdiqi olaraq, Hökumətlərindən lazımi surətdə səlahiyyətlər almış aşağıda imza qoyanlar bu Əlavə Protokolu imzaladılar.

Bakı şəhərində 11 oktyabr 2006-cı il tarixində hər biri Azərbaycan, rumın və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütü mətnlər eyni qüvvəyə malikdir. Təfsirdə fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikası Hökuməti adından** | **Rumıniya Hökuməti adından** |
| *(imza)* | *(imza)* |